# Müstəqilliyimizin gerçək memarı

**1993-cü ildə yeni geosiyasi konfiqurasiyada xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan zaman, 90-cı illərin ağır dövründə, müstəqillik anlayışını Heydər Əliyevdən daha yaxşı dərk edə biləcək kimsə ola bilməzdi. Çünki Azərbaycan Respublikasının müstəqilliyin təməlini hələ sovetlər vaxtı respublikaya rəhbərlik edərkən, 1969-1985-ci illərdə atdığı ardıcıl, məqsədyönlü addımlarla elə Ulu Öndər özü qoymuşdu.**



Lakin meydan hərəkatı adı altında əslində kəşfiyyat orqanlarının birbaşa nəzarətində olan "müstəqillik mübarizəsi" imitasiyaları suverenlik paradında real nəticələr əldə etmiş keçmiş müttəfiq dövlətlərdən fərqli olaraq Azərbaycanın suverenlik yolunu xeyli və lazımsız formada uzatdı. Çünki həm Vəzirov-Mütəllibov, həm də AXC-Müsavat cütlükləri üçün daha vacib Heydər Əliyev ideyaları, o cümlədən onun suveren Azərbaycan ideyası ilə mübarizə və dahi liderin fiziki məhvinə nail olmaq idi.

Təbii ki, xalqın iradəsi qarşısında fiaskoya məhkum belə cılız cəhdlər müasir dövlətçiliyimizin banisinin iradəsinə təsir edə bilməzdi. Ümumiyyətlə ötən dövrün təcrübəsi göstərir ki, Cənubi Qafqaz kimi mürəkkəb coğrafiyada güclü olmaq və müstəqil yaşamaq üçün ilk növbədə Ulu Öndər Heydər Əliyev və cənab İlham Əliyev kimi müstəqil dövlətçilik təfəkkürü ilə düşünmək lazımdır. Bu mənada bu ölkə və bu xalq üçün var olan, dövlətçiliyin və müstəqilliyin təməlində dayanan həqiqət Heydər Əliyevdir. Heydər Əliyev özünün azərbaycançılıq ideologiyası ilə elə müstəqil Azərbaycan deməkdir. Heydər Əliyev cəsarət, sədaqət deməkdir və bu coğrafiyada heç bir amil Heydər Əliyev kursu qədər tam mənada müstəqilliyimizin qarantına çevrilə bilmir. Bu irs müasir dövlətçiliyimizin təməlidir.

Məlumdur ki, 1969-cu ildə Ümummilli Lider Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilməsi ilə respublikamız geri qalmış ucqar subyektdən SSRİ-nin iqtisadi flaqmanına çevrildi, mədəniyyət, incəsənət, ədəbiyyat intibah dövrünə qədəm qoydu. Müstəqilliyin bərpası üçün bazis də məhz bu dövrdə formalaşmağa başladı. Heydər Əliyevin qurduğu sənaye, inkişaf etdirdiyi iqtisadiyyat, yaratdığı hərbi təyinatlı təhsil müəssisələri, formalaşdırdığı və qoruduğu milli elita elə Sovet dövründəcə Azərbaycana müstəqil davranmaq imkanı verdi.

Biz illər ərzində yanlış təbliğatın, yarıtmaz tarix dərsliklərinin ucbatından Sovet Azərbaycanına ancaq təqiblər dönəmi kimi baxmışıq. Amma Heydər Əliyevin əsəri olan 1978-ci il Konstitusiyasının 68-ci maddəsində Azərbaycanın suverenliyi, 69-cu maddədə SSRİ-dən azad surətdə çıxmaq hüququ, 73-cü maddədə dövlət dili kimi Azərbaycan dili təsbit edilirdi. Heydər Əliyev "dəyişdirə bilməyəcəyi bir rejimdə" xalq üçün nə etmək olar sualına cavab verməyi bacaran ilk və son lider oldu.

Tarixdən bəllidir ki, Sovet hakimiyyətinin ilk dövrlərində bolşeviklər kommunist ideologiyasına bağlı olmayan hər şeyin üzərindən xətt çəkirdilər. İnanclar, ənənələr, hətta milli musiqi belə keçmişin qalığı hesab olunurdu. Nə qədər qəribə olsa da SSRİ süquta uğrayandan sonra bu düşüncə vandalizmi Azərbaycanda yenidən baş qaldırdı. Bolşeviklərin muzdurlar şurasından fərqli olmayan AXC-Müsavat cütlüyü Sovetlərə bağlı nə varsa hər şeyə nifrət aşılamağa, hətta İkinci Dünya müharibəsi iştirakçılarını belə xainlikdə suçlamağa başladılar. Bunun bir səbəbi var idi, Heydər Əliyevə olan kin və düşmənçilik. Bilirdilər ki, Azərbaycan xalqı Heydər Əliyev kimi bir dahini qoyub bunlara üz tutmayacaq. Ona görə də Heydər Əliyevi SSRİ və KQB ilə assosiasiya edərək gözdən salmaq istəyirdilər. Amma xalq bilirdi ki, Heydər Əliyev şərəfli general kimi KQB sədri olanda da, Azərbaycana rəhbərlik edəndə də, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini olanda da həmişə milli olub. Əks halda 1988-1989-cu illərdə meydan hərəkatında olanlardan çox Heydər Əliyev məhrumiyyətlərə məruz qalmazdı. Lakin heç bir amil xalqın iradəsindən daha təsirli ola bilməz və xalqın israrlı tələbi ilə Ulu Öndər Heydər Əliyevin Naxçıvandan Bakıya böyük qayıdışı ölkənin və ümumilikdə bölgənin həyatında yeni bir başlanğıc oldu, dövlətimiz müstəqilliyini itirərək parçalanmaqdan, xalq isə vətəndaş müharibəsindən qurtuldu. İnkişaf və tərəqqi üçün zəmin yarandı. Heç şübhəsiz ki, böyük Zəfərə gedən yol da məhz o gündən başladı.

Ümummilli Lider Heydər Əliyevin Azərbaycana ikinci dəfə rəhbərliyə qayıtması yalnız bizim ölkə üçün yox, bütövlükdə yerləşdiyimiz mürəkkəb geosiyasi məkan üçün tarixi dönüş anı hesab edilməlidir. Xüsusən hazırkı postmünaqişə dövründə Qafqazda vahid təhlükəsizlik ideyasından danışarkən istinad oluna bilinəcək təməl prinsiplər məhz Heydər Əliyev ideologiyasının tezisləridir. Ümumiyyətlə ötən bir əsrlik dövr göstərir ki, müstəqilliyi qoruyub saxlamaq əldə etməkdən qat-qat çətindir. Cənubi Qafqazın bütün dövlətləri kimi biz də ilk müstəqilliyimizi tarixi proseslərin təbii gedişatında əldə etmişik. Yəni çar imperiyası dağılıb və digər dövlətlər kimi biz də ilk Cümhuriyyətimizi elan etmişik. Lakin o zaman birinci müstəqilliyimizi nəinki qoruya bilmədik, üstəlik həmin dövrdə istiqlaliyyəti qorumaq cəhdləri böyük ərazi itkiləri ilə nəticələndi. Qərbi Zəngəzur və Göyçəni itirdik. Xüsusən İrəvanın Ermənistana verilməsi kimi böyük tarixi cinayət yaşandı. İkinci müstəqillik dövründə isə "demokratiya" görüntüsü altında hakimiyyətə zəbt etmiş səbatsız qüvvələr Qarabağı və Şərqi Zəngəzuru itirdilər. Həmçinin tarixinin təkrarrü təhlükəsi ortaya çıxdı. Daha dəqiq desək, 1993-cü ildə də, 1920-ci ildə olduğu kimi müstəqillik də əldən getmək üzrə idi ki, məhz Heydər Əliyev şəxsiyyəti həmin dövrdə istiqlalımızın qarantına çevrildi. 1993-cü ildə Azərbaycan xalqı üçün Heydər Əliyevin şəxsiyyəti yeni fenomen deyildi, ulu öndər artıq bir dəfə xalqımızın taleyində həlledici rol oynamışdı, Azərbaycan insanına aydın idi, yalnız Heydər Əliyev yaranmış situasiyanı lehimizə çevirə bilərdi. Təsadüfi deyil ki, Naxçıvanda dahi Liderə müraciətlərin məzmununda "xalqı bu bəladan qurtarmaq" xahişlər və hətta təkidli tələblər əks olunurdu. İnsanlar Heydər Əliyevə ilk və son ümid yeri kimi baxırdılar. Bunun da çox sadə səbəbləri var idi.

Birincisi, Heydər Əliyevin bundan öncə Azərbaycana 13 illik rəhbərlik təcrübəsi var idi. Hansı ki, Sovet sistemində Azərbaycan ən ali inkişaf dövrünü məhz bu periodda yaşamış, əvvəldə də qeyd etdiyimiz kimi, elə ikinci müstəqilliyinin təməlini də o zaman qoymuşdu. Eyni zamanda Qarabağda erməni separatizmi baş qaldıranda və 20 yanvar hadisələrində birbaşa Moskvadan həyatını riskə atıb sovet sisteminə ilk etiraz edən rəsmi şəxs, o cümlədən də Azərbaycana qayıdıb Naxçıvana rəhbərlik etdiyi dövrdə ilk dəfə üçrəngli bayrağımızı dövlət müəssisələrində dalğalandıran məhz Ulu Öndər olmuşdu. 1991-ci ildə Heydər Əliyev Naxçıvanda üçrəngli bayrağı dalğalandırdığı halda xalq gördü ki, Bakıda hakimiyyət də meydandakılar da konkret addım atmır. Hətta İttifaq ölkələri bir-birinin ardınca müstəqilliyini elan etsələr də Bakıdakı "demokratlar" SSRİ-dən çıxıb-çıxmamaq barədə qərarsız qalmışdılar. Bakıda müstəqillik məsələsini referenduma çıxarmaq kimi utancverici bir qərar alındığı halda Heydər Əliyev tarixi cəsarət göstərib bu ideyanı ümumiyyətlə rədd etdi və Naxçıvanda ümumxalq səsverməsi keçirilməsinə imkan vermədi. Məhz bu qətiyyət xalqa kimin kim olduğunu bir daha göstərdi. Ölkənin üzərini almış vətəndaş müharibəsindən, dövləti parçalanmaqdan xilas edə biləcək yeganə gücün məhz Heydər Əliyev olması heç kimdə, hətta ilk gündən Heydər Əliyevə düşmən mövqe sərgiləyən AXC-Müsavat cütlüyündə, o cümlədən ozamankı prezidentdə də şübhə doğurmurdu. Reallıqda da aydın idi ki, Bakıda ozamankı rəhbərliyin nəinki dövləti, ümumiyyətlə heç özlərini idarə etməyə səriştələri yox idi. Dövlətdə cəzasızlıq şəraitində cəngəllik qaydaları hökm sürürdü. Belə bir şəraitdə, uşaqdan böyüyə hər kəsə aydın idi ki, bütün bəlaların, o cümlədən işğalın, vətəndaş müharibəsinin, daxili parçalanmanın kökündə məhz bu səbatsızlıq və bu yarıtmazlıq dayanır. Heydər Əliyevin xalqın təkidli tələbi ilə Bakıya gəlişi bizi ilk növbədə məhz bu zehniyyətdən qurtardı. Xalqı vahid amal uğrunda birləşdirdi, xaricdən maliyyə və silah dəstəyi alıb parçalanmaya rəvac verən ünsürləri zərərsizləşdirdi. Vahid, güclü mərkəzləşdirilmiş dövlət yaratdı, siyasi və iqtisadi müstəqillik üçün zəmin olan beynəlxalq müqavilələr imzaladı. Bu, dövlətin parçalanmadan, dövlətçiliyin süqutdan, xalqın isə məhvdən qurtuluşu demək idi.

Böyük Heydər Əliyevin suverenlik formulu kifayət qədər korrekt idi - ərazi bütövlüyü təmin olunmalı, daxildə sabitlik bərqərar edilməli və bütün dövlətlərlə bərabərhüquqlu münasibətlər yaradılmalıdır. 1995-ci ildə müstəqil Azərbaycanın ilk Konstitusiyası qəbul edilərkən də dahi lider bazisi məhz bu tezislər üzərində qurdu və qətiyyətli bir yol başlatdı.

Heydər Əliyev Konstitusiyanın qəbulundan dərhal sonra 1996-cı ildə Hüquqi İslahat Komissiyası yaratdı. "Konstitusiya Məhkəməsi", "Məhkəmələr və hakimlər", "Prokurorluq", "Polis", "Əməliyyat-axtarış fəaliyyəti haqqında" qanunlar və əsas maddi və prosessual məcəllələr qəbul edildi, yeni üçpilləli müstəqil məhkəmə sistemi yaratdı, ədalət mühakiməsinin beynəlxalq təcrübəyə əsaslanan səmərəli formulunun tətbiqinə xüsusi diqqət yetirildi, ölkəmiz MDB məkanında "Habeas Corpus" prinsipini tətbiq edən ilk dövlətlərdən oldu. AXC-Müsavat funksionerlərindən fərqli olaraq məhz dahi liderin hakimiyyətə gəlməsi ilə Azərbaycanda ölüm hökmü tarixə qovuşdu.

Uzun əsrlərdən sonra real suverenlik yoluna qədəm qoyan Azərbaycan xalqının bəxti onda gətirdi ki, ali konstitusion niyyətlərin reallizəsində Ulu Öndər ideyalarını Azərbaycan xalqının vahidliyini təcəssüm və Azərbaycan dövlətçiliyinin varisliyini təmin etməyə qadir bir lider cənab İlham Əliyev davam etdirdi. Daha dəqiq desək, Heydər Əliyev ideyaları özündən sonra daha müasir və daha mütərəqqi formada, cənab İlham Əliyevin timsalında davam etdi. Möhtərəm Prezidentin ali siyasi hakimiyyətə gəlişi əslində həm də konstitusion niyyətlərimizin təntənəsidir. Əminliklə deyə bilərik ki, son 22 il ərzində cənab İlham Əliyev Cənubi Qafqaz kimi mürəkkəb bir bölgədə müstəqil Azərbaycanın ilk Konstitusiyasında təsbit edilmiş ali niyyətləri öz gücünə və öz qətiyyəti hesabına reallığa çevirdi.

Sirr deyil ki, Qarabağ məsələsi Ulu Öndərin nisgili idi, hətta son müraciətində də ifadə edirdi ki, "xaos və anarxiya dövründə yaranmış bu problemi həll də həll edə bilməmişik". Heydər Əliyevə qədərki idarəçilik normal təfəkkürə sahib olsaydı, onun dediyi kimi, "xalqı vahid sarsılmaz bir qüvvə kimi Azadlıq meydanına toplayan milli hisslərdən konstruktiv şəkildə istifadə olunsaydı, Qarabağ adlı problem də olmazdı". Amma o zaman Xalq Cəbhəsi təhlil və proqnozlar əsasında milli platforma yaratmaq əvəzinə, populist meydan əhvali-ruhiyyəsinə üstünlük vermişdi. Ulu Öndərin dediyi kimi, "bu məsələyə Azərbaycan xalqı layiqincə cavab verməyə qadir idi". Cənab İlham Əliyev də sübut etdi ki, Azərbaycan xalqı böyük qələbəyə həm qadirdir, həm də layiq! Sadəcə idarəçilik milli düşüncədə, doğru əldə olmalıdır. Ulu Öndərin layiqli varisi və Heydər Əliyev siyasi kursunu keyfiyyətcə yeni mərhələyə daşıyan cənab İlham Əliyev prosesə konseptual yanaşdı. Güclü iqtisadiyyat qurub, iqtisadi suverenliyimizi təmin etdi. Ölkəni çadırlardan azad etdi. Məcburi köçkün çadır şəhərciklərini ləğv edərək 200 ildir məğlub kimi yaşayan xalqa qalib kimi düşünməyi öyrətdi. Böyük Zəfərimizə qədər cənab İlham Əliyev həm tariximizin, həm də regionun ən güclü ordusunu və ən nəhəng müdafiə sənayesini qurdu, vətənpərvər gənclik yetişdirdi. 200 ildir zəbt edilmiş təfəkkürləri, 30 ildir işğalda qalan Qarabağ və Şərqi Zəngəzuru azad etməklə, ərazi bütövlüyü və suverenliyimizi tam bərpa etməklə, cənab İlham Əliyev Müzəffər Ali Baş Komandan kimi Azərbaycan tarixinin heç bir dövründə heç bir liderə müyəssər olmayan bir zirvəyə ucaldı. Zəfərdən cəmi 8 gün sonra özünün ən sadiq silahdaşı Birinci vitse-prezident Mehriban xanım Əliyeva ilə işğaldan azad olunmuş bölgələrə səfər edən cənab İlham Əliyev tariximizin ən iri həcmli quruculuq-bərpa prosesinə start verdi. Heydər Əliyev ideologiyasının İlham Əliyev şəxsiyyətinin simasında realizəsi nəticəsində bu gün Azərbaycan torpaq itirən dövlətdən işğala, təcavüzə son qoyan və bölgədə diktə edən gücə çevrilmiş, milli həmrəyliyimiz möhkəmlənmişdir. Xüsusən 44 günlük müharibə və antiterror tədbirlərindən sonra yaranan yeni reallıqda cənab İlham Əliyevin rəhbərliyi ilə vahid azərbaycançılıq ideyası və milli maraqlar rəhbər tutularaq ölkənin tərəqqisi naminə həlledici addımlar atılmaqda, eyni zamanda, Türk dünyasının birliyi yolunda ciddi və təsirli nəticələrə nail olunmaqdadır.

Ümummilli Liderin hər bir sağlam təfəkkürlü azərbaycanlının qəlbində yaşayan irsi bizim taleyimizdir. Çox xoşbəxt xalqıq ki, Ulu Öndər siyasi kursu cənab İlham Əliyevlə özünün yeni mərhələsinə qədəm qoyub və bu siyasi irsin davamlılığını heç kim əngəlləyə bilməz. Hər kəs arxayın ola bilər ki, Heydər Əliyevlə başlanan və bizi tarixin heç bir dövründə olmadığı qədər güclü edən bu yol birmənalı şəkildə Heydər Əliyevlə də davam edəcək. Bu gün məhz cənab İlham Əliyevin sayəsində Azərbaycan öz tarixinin bütün dövrlərindən daha müstəqil, tam suverendir. Bu gün bizə çoxlarından fərqli olaraq məhz öz suveren iradəmizlə Konstitusiya çərçivəsində demokratik quruluş formalaşdırmağa imkan yaradır. Biz xaç yürüşü elementi kimi qərbdən demokratiya ixrac etmirik, Azərbaycanda vətəndaş cəmiyyəti qonşu ölkələrdə nümunəsinə şahidlik etdiyimiz və həmin ölkələr üçün təhdidə çevrilmiş qaydada yox, milli iradənin ifadəsi kimi formalaşmaqdadır.

Bu gün xarici tezislər əsasında aclıq, susuzluq şouları ilə qanunlardan üstün olmaq istəyənlərə, yaxud xəyanət üzərində siyasi karyera arzulayan mənfurlara rəğmən qanunların aliliyini təmin edən hüquqi, dünyəvi Azərbaycan quruculuğu tam yeni mərhələyə qədəm qoyub. Vətən müharibəsi və antiterror əməliyyatları ilə işğala, təcavüzə son qoyulması, cənab İlham Əliyevin hərbi-siyasi Zəfəri, sülh perspektivləri tək Azərbaycan yox, bütövlükdə regionda ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq hamının layiqli həyat səviyyəsini təmin etməyə qadir bir konfiqurasiya meydana çıxarıb.

Bütün yaşananlar, əldə olunan müstəsna nəticələr bir daha göstərir ki, Azərbaycan üçün ən doğrusu məhz Heydər Əliyev siyasi kursunun davamlılığıdır. 21 il əvvəl Ulu Öndər irsi yaşadan, öyrənən və öyrədən Heydər Əliyev Fondunun da məhz bu zərurətlər meydana çıxardı. Əminliklə deyə bilərik ki, Fond Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Ulu Öndərin arzuladığı dövlət quruculuğunda nəinki aktiv rol almağı bacardı, hətta bir sıra istiqamətlərdə, o cümlədən sosial-mədəni və humanitar sahələrin inkişafında, azərbaycançılıq ideologiyasının və milli həmrəyliyin güclənməsində aparıcı mövqe tutdu. Vətən müharibəsində arxa cəbhənin mənəvi və bir çox hallarda maddi yükü Mehriban xanımın və rəhbərlik etdiyi Fondun üzərinə düşdü. Bu mənada yaradılmasının 21-ci ildönümü də Heydər Əliyev Fondu və şəxsən Mehriban xanım bu irsi ləyaqətli yaşatdığı üçün ən səmimi minnətdarlığı haqq edir.

Bu gün artıq yeni hədəfləri, olan bir Azərbaycan var, Müzəffər Liderin 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi haqqında Sərəncamında da ifadə olunduğu kimi, bu gün Azərbaycan Respublikası xalqımızın milli maraqlarını rəhbər tutaraq yeni reallıqlar şəraitində müstəqil siyasətini daha cəsarətlə, prinsipiallıqla davam etdirir, Konstitusiyanın tələblərinə və öz suveren hüquqlarına əsaslanaraq qarşıda duran strateji hədəflərə doğru inamla irəliləyir.

**Bəhruz MƏHƏRRƏMOV,**
**Milli Məclisin deputatı.**